S.11.

Xalq qəzeti

13 dekabr 2022-ci il, çərşənbə axşamı

# Heydər Əliyev dünyaya qələbə çalmaq üçün gəlmişdi

**ANAR,**
**Azərbaycan Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı**



**Heydər Əliyevi tanıyanda çox gənc idim. Sonrakı illərdə Azərbaycan rayonlarına səfərlər zamanı, müxtəlif vaxtlarda Gəncədə, Naxçıvanda, Şuşada, habelə İstanbulda və Ankarada, Moskvada, Romada, Pekində və Şanxayda, Almatıda, Bişkəkdə, dövlət başçılarıyla söhbətlərində, sənətçilərlə ünsiyyətində, tarlalarda ya küçələrdə adi adamlarla görüşlərində onu yaxından müşahidə etmək imkanım olub.**

Zənnimcə, Heydər Əliyev bu dünyaya həmişə qələbə çalmaq üçün gəlmişdi. O, heç bir vaxt qarşısına çıxan heç bir çətinliyin qabağından qaçmazdı. 2003-cü ili – ömrünün son ilini də Heydər Əliyev qalib kimi başa vurdu. Dünyaya qalib kimi gəldi, dünyadan qalib kimi getdi. Heydər Əliyev hər xalqa bəlkə də, əsrdə bir dəfə qismət olan nadir şəxsiyyət idi. Həyata qalib kimi gəlmişdi. Xalqı ölümüylə sarsıdan, sarsındıraraq birləşdirən, kədərləndirərək bütövləşdirən Heydər Əliyev ölümüylə də zəfər çaldı.

Ümummili lider Heydər Əliyev haqqında danışarkən bir məqamı qeyd etməmək mümkün deyil. Şəxsiyyətlərin miqyası, bir tərəfdən onların öz zamanlarında gördükləri işlərin, yaratdıqlarının, etdiklərinin, dediklərinin, həyata keçirdiklərinin əhəmiyyəti ilə, əhatəsi ilə, təsir dairəsi ilə ölçülürsə, digər tərəfdən bu fəaliyyətin tarixdə əks-sədasıyla, uzun illər, dövrlər müddətində hadisələrin gedişatını yönəltməsi ilə müəyyənləşir. Hər iki meyarla Heydər Əliyev - tarixi şəxsiyyətdir.

Heydər Əliyev bütün fəaliyyəti boyu dəfələrlə dövrün və mövcud sistemin ağır sınaqlarından uğurla çıxan müzəffər siyasətçi idi. Ulu öndər Heydər Əliyev öz rəqiblərindən və müasiri olduğu digər siyasətçilərdən, ilk növbədə, üstün keyfiyyətləri ilə seçilirdi. Məhz bu keyfiyyətlərinə, öz daxili tarazlığını hər zaman qoruduğuna görə Heydər Əliyevin siyasi və rəhbərlik karyerası sonadək uğurlu olmuşdur.

Heydər Əliyevdən Azərbaycana onun möhkəmləndirdiyi, inkişaf etdirdiyi ölkə–sabit, istiqrarlı, söz, mətbuat azadlığı təmin olunmuş, müxtəlif siyasi qurumların, o cümlədən, müxalifət partiyalarının fəaliyyət göstərdiyi, senzurasız, ölüm hökmsüz, sivil dünya ailəsində layiqli yer tutan demokratik Azərbaycan qaldı. Əlbəttə, yaxın gələcəyin Azərbaycanı daha da gözəl, firavan, daha əzəmətli və daha ədalətli olacaq. Amma bu xoşbəxt gələcəyin təməlini bütün şər qüvvələrlə mübarizədə qalib çıxan Heydər Əliyev qurdu, əl-ayağa dolaşanlara rəğmən çətin doğulan əsər kimi yaratdı. Çağdaş Azərbaycan, doğrudan da, Heydər Əliyevin əsəridir. Bizim borcumuz bu əsəri yaşatmaq, qorumaq, cilalamaq və gələcək nəsillərə yetirməkdir.

Çağdaş Azərbaycan, doğrudan da, Heydər Əliyevin əsəridir. Bizim borcumuz bu əsəri yaşatmaq, qorumaq, cilalamaq və gələcək nəsillərə yetirməkdir. Heydər Əliyev, eyni zamanda, min bir zəhməti bahasına qurduğu dövlətin qorunub saxlanması və gələcəkdə daha da qüdrətli olması üçün siyasi varis yetişdirməyi də unutmamışdı. 2003-cü ildən keçən zaman ərzində cərəyan edən proseslər, Azərbaycanın Heydər Əliyev yolu ilə gedərək yeni-yeni uğurlar əldə etməsi dahi şəxsiyyətin bütün digər məsələlər kimi, siyasi varislik məsələsində də yanılmadığını sübuta yetirdi. Hörmətli Prezidentimiz İlham Əliyev ulu öndərin layiqli davamçısıdır.

Heydər Əliyev ideyaları, Heydər Əliyev siyasəti əbədiyaşardır.